**Atam Həbs Olunan Gecə**
**Hüseyn Cavid (1882-1944)**
**Qızı Turan Cavid Tərəfindən**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 4.1 (Yaz 1996)
© 2002. Azerbaijan İnternational



Mən heç vaxt atamı həbs etdikləri günü—4 iyun, 1937-ci ili unutmaram. Mənim o vaxt 14, atamın isə 52 yaşı var idi. Onlar atamı aparmağa gələndə mən evdə yatmışdım. Ertəsi gün yuxudan duranda atamı evdə görmədim. Onlar gecə gəlmiş və mənim yatdığım otaqdan başqa otaqların hamısını axtarmışlar. Hətta mətbəxə belə keçmişdilər. Bizdə hələ də onun həbsinə aid olan orderin surəti və onların müsadirə etdikləri şeylərin siyahısı durur. Bura onun pasportu, doğum şəhadətnaməsi, 5 qeyd dəftəri, şəxsi yazışmaları, 23 şəkli, ərəb, fars və türk dillərində olan 115 kitabı və bir dolu səbət əlyazmaları daxil idi. Sənəddə üç şəxsin, Parşin, DTK işçisi Pavlov və qonşumuz Verdiyevin imzası vardır.



Bəziləri deyirlər ki, atam həbs olunacağından əvvəlcədən şübhələnibmiş, amma mən buna inanmıram. Əgər o bunu hiss etsəydi, əlyazmalarını evdən götürüb başqa yerdə saxlayardı. O həbs olunan gecə yazılarını qorumaq istədi, amma onlar buna imkan vermədilər. Həmin əlyazmaların müsadirəsi çox böyük itki oldu. Onlar heç vaxt nəşr olunmamışdı. Biz onların məzmununun nədən ibarət olduğunu heç vaxt bilməyəcəyik.

Anam, Müşkinaz xanım, öz xatirələrində həmin faciəli gecə haqqında yazır: "O gecə  Cavid bir qutu yarım siqaret çəkdi. Növbəti dəfə siqaretini yandıranda DTK məmurları siqareti  Cavidin cibindən götürdülər. Yoldaşım ona alışqan təklif etdi, ancaq o rədd etdi. Sonra Cavid qəmgin

halda mənə baxıb ah çəkdi."

Atam heç vaxt heç bir partiyanın üzvü olmamışdı. O, heç bir siyası təşkilata cəlb olunmamışdı. DTK onu dövlət çevrilişi hazırlayan bir əks-inqilabi təşkilatın yaradıcı üzvlərindən biri olmaqda ittiham edirdi. Bu həqiqət deyildi, amma bunun belə olmadığını sübut etmək də qeyri-mümkün idi. O heç zaman həmin ittihamları qəbul etmədi. Onlar həmişə həbs etdikləri şəxslərə yalan ittihamları etiraf etdirmək üçün təzyiq göstərirdilər. Onlardan bəziləri onlara işgəncə verdikləri zaman təslim olurdular, amma atam isə heç vaxt heç bir əks-inqilabi təşkilata cəlb olunduğunu etiraf etməmişdi. Onların o dövrdə etdiklərinin heç bir hüquqi əsası yox idi. Onlar Mikayıl Müşfiqi onun sosialist reallıqlarını tərifləyən şerlər yazdığına baxmayaraq 29 yaşında olarkən həbs etdilər.

Atamı 8 illik həbs cəzasına məhkum etdilər. 2 il Bakıda saxladıqdan sonra Sibirə sürgün olundu. 7 ildən sonra 1944-cü ildə elə ordaca vəfat etdi. Onun həbsindən sonra bizim bütün məişət əşyalarımız müsadirə olundu və anam, qardaşım və mən üç otaqlı mənzilimizdən çıxarılaraq 9 $km^2$ sahəli 1 otaqlı mənzildə yaşamağa məhkum edildik. Zaman keçdikcə və mən böyüdükcə atamın kimliyinə görə həmişə iş tapmaqda çətinlik çəkirdim. Çox çalışdım. Nəhayət dostlarımın köməkliyi ilə iş tapa bildim.

**Tənqidlə Üz-Üzə**
Əlbəttə ki, atamın işi çox vaxt tənqid olunurdu. O buna alışmışdı. Ümumiyyətlə o, heç vaxt buna çox fikir vermirdi. O, deyərdi: "Bu onların işidir. Qoy çörək pullarını qazansınlar." Tənqidə baxmayaraq, o, 20-ci və 30-cu illərin ən dəyərli yazarlarından biri idi. Sovet reallığından heç vaxt yazmadığına görə tez-tez tənqid olunardu. Ondan Sovet hakimiyyəti ilə bağlı məsələlərdən yazmaq tələb olunurdı, o isə bunu etmirdi. Tezliklə 1920-ci ildə Sovetlər hakimiyyətə gələndən sonra o, "Peyğəmbər" dram əsərini yazdı. 1936-cı il 7-ci sinif dərsliyində belə deyilir: "Proletar illəri ərzində  Cavid Azərbaycan burjuaziyasının və mülkədarlarının irsi sayılan dini ideallaşdırmaq üçün əlindən gələni edirdi."

Onun azərbaycan oğlanı ilə gürcü qızı arasında olan məhhəbbətdən bəhs edən "Şeyx Sənan" əsərində qəhrəmanlar məhəbbət uğrunda özlərini həlak edirlər. Hökumət məmurlarından biri atama sonluğu dəyişib, qəhrəmanların evlənərək yaşaması ilə bitirməsini söyləmişdi. Atam bundan çox hirslənmiş və Şeksprin "Romeo və Julyetta" və Fizulinin "Leyli və Məcnun"-dakı faciənin normalarını nə qədər izah etməyə çalışsa da onlar yenə də başa düşməmişdilər. Bu təzyiqlərə baxmayaraq, atam heç vaxt nə sistemi tənqid etmiş, nə də ki, iclaslarda onun əleyhinə danışmışdır.

Çoxları atamın əsərlərində niyə türk dilinə çox yaxın bir dil üslubundan istifadə etdiyi maraqlandırır. Sadəcə olaraq o təhsilini İstambulda almışdır. Bir çox Avropa yazıçılarınn dram əsərlərini türk dilində oxumuşdur. Əminəm ki, o başqa bir ölkədə oxumuş olsaydı, yenə də məhz həmin ölkənin dilinin təsiri altında yazardı. Ancaq ailədə biz həmişə türkcə deyil, azərbaycan dilində danışırdıq. Hətta bu gün belə onun dram əsərlərini başa düşmək bəziləri üçün çətinlik törədir. Ancaq bu onun seçdiyi üslub idi. Bir dəfə bir cavan şair atamdan onun dilinin niyə bu qədər çətin olduğu barədə soruşmuşdu. O isə "Sən özün istədiyin kimi yaz, mən artıq öz üslubumu seçmişəm."

Cavid Bakıda Teatr Kollecində Azərbaycan ədəbiyyatından dərs demişdir və onun tələbələrindən bir neçəsi sonralar Azərbaycan teatrında tanınmış şəxslər olmuşlar. Bunlara Mehdi Məmmədovu, Əli Zeynalovu misal gətirmək olar. Məmmədov sonralar məşhur teatr direktoru və prodüser olmuş və onun haqqında kitab yazmışdır.

**Qayğıkeş Atam**

Mən atamı xeyirxah və ailəsini mühafizə edən bir insan kimi xatırlayıram. O yazı üçün gecənin sakitliyini üstün tutardı və həmişə bir fincan kofe ilə başlamağı xoşlayardı. O, çox vaxt səhər saat 4-ə və ya 5-ə kimi işləyərdi. Ertəsi gün isə həmin materialı qaydaya salardı. Anam deyir ki, o çox vaxt yazılarını bir neçə dəfə yenidən o qədər səliqəli köçürürdü ki, onlar çap olunmuşa oxşayırdılar. Gecə işləməyinə baxmayaraq o heç vaxt anamı tezdən durmağa qoymazdı. Biz uşaqlar məktəbə getməyə hazırlaşarkən bizə anam yox, atam səhər yeməyi hazırlayardı. O, həmişə bizə paltarımız barədə çox narahat olmamağa və daha çox yeməyimizə və sağlamlığımıza fikir verməyi məsləhət görürdü. Biz xəstələndikdən sonra artıq yaxşı geyinib-kecinməyin mənasının olmadığını deyərdi.

Tez-tez bizi teatra aparırdı. Mənim o vaxt 12 ya 13 yaşım olardı. Teatrdan geri dönəndə o qardaşımdan və məndən tamaşadan nə başa düşdüyümüzü soruşardı. Qardaşım məndən böyük və istedadlı idi, mən isə hələ də balaca idim və çox şeyi anlamırdım. Bundan sonra böyük adamlar kimi bizə tamaşa, aktyorlar, və yaradıcı heyət haqda danışardı. Bəlkə də elə buna görə də mən özüm teatr tənqidçisi olmaq qərarına gəldim.

Atamın kitabları 1913-1934-cü illər arasında çap olunmuşdur. “Keçmiş günlər” 1913-cü ildə, “Bahar qayğıları” isə 1917-ci ildə nəşr olunmuşdur. “Maral”, “Uçurum”, və “Topal Teymur” 1926-cı ildə işıq üzü görmüşdür. Bu dörd cildli əsərlər toplusu sonuncu dəfə 1982-ci ildə çap olunmuşdur, lakin bəzi çatışmayan cəhətləri var. Redaktor dəyişikliklər etmiş və orada işlənən sözlərin bəzilərini təhrif etmişdir.

**“Bəraət”**

Atam 1956-cı ildə Xruşşovun hakimiyyəti dövründə “bəraət” (onlar bunu belə adlandırırdılar) qazandı. Ancaq bununla belə 1981-ci ilə qədər lazımi qaydada qiymətləndirilməmişdi. Çox güman ki, o vaxt hələ də represiya qorxusu var idi. Yüksək mövqe (vəzifə) tutmuş şəxslər şəxsən bu dövrün şahidi olmuşdular.

1956-cı ildən sonra onlar tədricən atamın əsərlərini çap etdirməyə başladılar və “Şeyx Sənan” dram əsərini səhnələşdirdilər. 1963-cü ildə atamın Azərbaycanda 80 illik yubileyi qeyd edildi, lakin bu çox süni bir tədbir idi. Ona yazıçı kimi ilk həqiqi qiymət  Cavidin məzarını Sibirdən Bakıya gətirilməsini təşkil edən prezident Əliyev tərəfindən verilmişdir. 1981-ci ildə atamın 100 illik yubileyi ilə əlaqədar olan bu qərar verildikdən sonra atamın kitabları nəşr olundu (hətta rus dilində belə), əsərləri səhnələşdirildi və onun şərəfinə Bakıda və Naxçıvanda abidələr ucaldıldı. Ömər Eldarova atamın ildönümü ilə əlaqədar olaraq onun xatirəsinə abidə hazırlanması həvalə olundu və həmin abidənin 1993-cü ildə Elmlər Akademiyasının qarşısında açılışı oldu. Adın çəkdiyim şəhərlərdə ev muzeyləri də təşkil olundu. Prezident Əliyev  Cavidin işlərinin qüdrəti barədə söhbət açaraq çıxışlarının birində “ Cavid adətən Şekspirlə müqayisə olunur, ancaq mən onu daha çox

Höte ilə müqayisə edərdim.  Cavidin “İblis”-indəki şeytanı və ya iblisi Hötenin “Faust”-undan heç də zəif deyildir” - dedi.

“İblis” çox güclü fəlsəfi dram əsəridir. Burada insanların içində bir şeytanın mövcud olma mümkünlüyünü tədqiq edir. Bu şeytan bəşəriyyətin ən qatı düşmənidir. Əsərdə deyildiyinə görə Birinci Dünya Müharibəsini törədən şeytandır. Bununla belə ümumiyyətlə  Cavidin iblisi daha geniş anlamda, yəni bütün xainliklərin, ölümlərin və müharibələrin baisi kimi izah oluna bilər. Film direktoru Ramiz Almuradlı bu əsərin əsasında kino çəkməyi planlaşdırır.

Sürgündən sonra atamın adı 70-ci illərin sonuna qədər heç bir məktəb dərsliklərində çəkilməmişdir. Artıq bu dövrdə ona böyük yazıçı və Stalin represiyasının qurbanı kimi istinad edilir. 80-ci illərin sonunda məktəb dərsliklərində onun əsərlərindən ibarət kiçik bir bölmə ayrılmışdı. Bu gün onun ədəbi yaradıcılığı və bədii dünyagörüşü ətraflı öyrənilir. Əslində bir çox məktəb dərsliklərində “Represiya və ədəbiyyat” başlıqlı yeni bir kateqoriya yaradılmışdır. Zaman necə də təəcüblü dərəcədə dəyişir.

Turan  Cavid 1937-ci il Stalin represiyası ərzində sürgün edilmiş Hüseyn  Cavidin qızıdır. O Azərbaycanın ən böyük epik şairlərindən biri sayılır. Jalə Qəribova məqalənin hazırlanmasına yardım göstərmişdir.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova